KREDO
№09 (1089) 02 mart 2022-ci il

# ƏDƏBİYYAT TARİXİNİN "CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATI" CİLDİ



AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən "Azərbaycan ədəbiyyatı tarixi" on cildliyinin doqquzuncu cildi nəşr edilib. İnstitut Elmi Şurasının 28 oktyabr 2021-ci il tarixli 7 saylı iclas protokolunun qərarı ilə nəşr olunan doqquzuncu cild "Cənubi Azərbaycan ədəbiyyatı" bölməsini əhatə edir.

1220 səhifəlik kitabın redaksiya şurasına İsa Həbibbəyli (baş redaktor), Rəhim Əliyev (məsul redaktor), Əlizadə Əsgərli (məsul redaktorun müavini), Fikrət Süleymanoğlu (məsul katib), Aygün Bağırlı, Esmira Fuad və Pərvanə Məmmədli daxildir.

"Elm" nəşriyyatında işıq üzü görmüş kitab AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəylinin "Ədəbiyyat tarixinin Cənubi Azərbaycan cildi" başlıqlı ön sözü ilə başlayır.

Kollektiv elmi-yaradıcılıq məhsulu olan fundamental "Azərbaycan ədəbiyyatı tarixi" kitabının doqquzuncu - "Cənubi Azərbaycan ədəbiyyatı" cildində problemlər konkret mərhələ və istiqamətlər üzrə öyrənilmişdir. Akademik nəşrdə XIX əsr Cənubi Azərbaycan ədəbiyyatını meydana çıxaran sosial-siyasi və ədəbi-mədəni mühit, habelə dövrün maarifçilik hərəkatının təşəkkülü, inkişaf mərhələləri, maarifçi-realist ədəbiyyatın ideya-məzmun, dil və üslub xüsusiyyətləri tədqiqini tapmışdır.



Kitabda Cənubi Azərbaycanda milli azadlıq uğrunda mübarizə (1906-1920), milli müqavimət (1920-1941) dövrləri ədəbiyyatı elmi əsaslarla təhlil edilmişdir. Cilddə ikinci dünya müharibəsi illərindəki milli hərəkatın istiqlal ədəbiyyatı (1941-1946), sonrakı illərin (1947-1979) ədəbi prosesi və İran İslam inqilabından sonrakı (1979-cu ildən) yeni mərhələ, habelə dünyadakı Cənubi Azərbaycan mühacirətinin ədəbi fəaliyyəti təqdim olunmuşdur. Fundamental tədqiqat işində hər bir tarixi-ədəbi mərhələnin geniş icmalları və əhatəli portret-oçerkləri verilmişdir.




Elmi icmallar və portret-oçerklərdən ibarət kitabda İsa Həbibbəyli, Teymur Əhmədov, Rəhim Əliyev, Dilşad Cabbarlı, Xədicə İsgəndərli, Cəfər Müciri, İslam Qəribli, Sədrəddin Hüseyn, Şahbaz Musayev, Xeyrulla Məmmədov, Mahmizər Mehdibəyova, Pərvanə Məmmədli, Asif Rüstəmli, Səməd Bayramzadə, Fərman Xəlilov, Elmira Bağırova, Esmira Fuad, Vüqar Əhməd, Solmaz Daşdəmirova, Fikrət Süleymanoğlu, Lətifə Mirzəyeva, Sədaqət Məmmədova, Qəndab Quliyeva, Sabiqə Ələsgərova, Aydın Sərdarniya, Bahar Bərdəli, Ağahüseyn Şükürov, Kifayət Məmmədova, Zəminə Zeynalova, Əlizadə Əsgərli kimi alimlərin tədqiqatları yer alıb.

On üç bölümdən ibarət kitabda Azərbaycan, türk, rus dillərində və internet resurslarından ibarət 866 sayında ədəbiyyat siyahısını Lətifə Mirzəyeva və Fikrət Süleymanoğlu sistemləşdirib. Kitabda eyni zamanda ingilis və rus dillərində ətraflı xülasələr yer alıb.



***Gülnar SƏMA,***
***Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,***
***İctimaiyyətlə əlaqələr şöbəsi***